## SARVAN ƏRŞAD OĞLU MANSUROV – 50



Sarvan Ərşad oğlu Mansurov 15 fevral 1970-ci ildə Şamaxı rayonunun Şıxlar kəndində anadan olmuş, 1977 - 1987-ci illərdə Qobustan qəsəbəsində yerləşən 223 saylı orta məktəbi bitirmişdir. 1988 - 1990-cı illərdə hərbi xidmətdə olmuşdur. 1995-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasında "dağ mühəndisi-geofizik" ixtisasına yiyələnmişdir.

1987-ci ildə "Xəzərdənizneftgeofizika" trestində fəhlə peşəsi üzrə əmək fəaliyyətinə başlamış, 1990-1993-cü illərdə karotajçı, 1994-2010-cu illərdə isə "Səngəçal" MGE-də dəstə rəisi vəzifəsində çalışmışdır. İşlədiyi bu dövrdə SOCAR-ın idarə və təşkilatlarının ("Azneft" İB, "Kompleks Qazma İşləri" tresti), Azərbaycanda fəaliyyət göstərən müştərək müəssisə və əməliyyat şirkətlərinin sifarişlərinə əsasən Bibiheybət, Binəqədi, Atəşgah, Lökbatan, Qaradağ, Quşxana, Şabandağ, Qalmaz, Kürovdağ, Kələməddin, Mişovdağ, Muradxanlı, Neftçala, Puta, Günəşli, Neft Daşları, Palçıq Pilpiləsi, Qərbi Abşeron, Abşeron küpəsi, Pirallahı, Darvin küpəsi, Bahar, Qum-dəniz, Çilov-dəniz, Duvannı-dəniz, Bulla-dəniz, "8 Mart" kimi neft-qaz yataqlarında qazmada və istismarda olan neft-qaz quyularında quyu geofiziki tədqiqatlar, yataqların işlənməsinə geofiziki üsullarla nəzarət, partlayış-atma işləri aparmış, yeni texnika və texnologiyanın istehsalata tətbiqində yaxından iştirak etmiş və həmişə qabaqcıl mütəxəssislər sırasında olmuşdur.

2010 - 2016-cı illərdə SOCAR-ın Geofizika və Geologiya İdarəsinin "Səngəçal" mədən-geofiziki ekspedisiyasının rəisi vəzifəsində əmək fəaliyyətini davam etdirmişdir. Ekspedisiya rəisi işlədiyi dövrdə gənc mütəxəssislərin istehsalatda yetişməsində və bilik səviyyələrinin yüksəldilməsində mühüm rol oynamışdır.

2016-cı ildən hal-hazıra kimi Geofizika və Geologiya İdarəsində rəisin birinci müavini vəzifəsində çalışır. Onun təşəbbüsü və iştirakı ilə "Neft və qaz quyularında geofiziki tədqiqat

vəzifəsində çalışır. Onun təşəbbüsü və iştirakı ilə "Neft və qaz quyuların
işlərinin aparılması üzrə texniki təlimat", "Partlayış işlərində vahid təhlükəs
və qaz quyularında geoloji-texnoloji və geokimyəvi tədqiqatların aparılmas
və digər təlimatlar hazırlanmışdır.

Şərəfli həyat yolu keçmiş S.Ə. Mansurov istedadlı mütəxəssis, təcrübəli ne
yanaşı yüksək peşəkarlıq səviyyəsi və məhsuldar istehsalat fəaliyyətinə malik
də o, çalışdığı kollektivdə hər zaman özünə dərin hörmət və ehtiram qazanm

Həmkarları və kollektiv arasında böyük nüfuza malik olan Sarvan müəllim
uzun və şərəfli ömür, Azərbaycan geofizikasının inkişafı naminə apardığı işlər

*SOCAR Geofizika*
*Azərbaycan Milli G*
*"Azərbaycanda Geofizika Yenilikləri" jurnalın*

...da geofiziki tədqiqat
...izlik qaydaları", "Neft
...ı üzrə texniki təlimat"
...ftçi – geofizik olmaqla
...k bir işçidir. Buna görə
...ışdır.
...ə möhkəm cansağlığı,
...də uğurlar arzulayırıq!
*... və Geologiya İdarəsi*
*...Geofizika Komitəsi İB*
*...ının redaksiya heyəti*